DOI:10.30546/gdu.2023.278-285

**UOT:82.**

# ŞƏRİF AĞAYARIN "HARAMI" ROMANI VƏ 90-CI İLLƏR AZƏRBAYCAN HƏQİQƏTLƏRİ

***İslamova Jalə Elman qızı***
***Bakı Slavyan Universiteti***
***jalaismayil0220@gmail.com***

**Xülasə:** *Şərif Ağayar 90-cı illərdə ədəbiyyata gəlmişdir. Bir sıra maraqlı hekayələrin müəllifidir. Ancaq Şərif Ağayar yaradıcılığında "Haramı" romanı əhəmiyyətli yer tutur. "Haramı" romanında baş verən hadisələr 90-cı illərin əvvəllərində cərəyan edir. Məlumdur ki, 90-cı illər Azərbaycan tarixinin ən çətin dövrlərindən biridir. Azərbaycan iqtisadi, siyasi çətinliklkər məngənəsində inləyirdi. Bir tərəfdən də erməni işğalı... Şərif Ağayar "Haramı" romanında 90-cı illər Azərbaycan cəmiyyətinin yaşadığı problemləri göstərməyə müvəffəq olmuşdur. "Haramı" romanının maraqlı obrazlar sistemi vardır. Ancaq bütöv hadisələri və obrazları Qoç Səməndər birləşdirir. Səməndərin taleyi, həyatı əsərdə ən sərt şəkildə təsvir olunmuşdur.*

**Açar sözlər:** Şərif Ağayar, həqiqət, Azərbaycan, qaçqınlıq, problem
**Key words:** Sharif Aghayar, the truth, Azerbaijan, refugee, problem
**Ключевые слова:** Шариф Агаяр, правда, Азербайджан, беженцы, проблема

Şərif Ağayarın "Haramı" romanı bir çox xüsusiyyətlərinə görə digər əsərlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Roman bir-biri ilə sıx əlaqədə olan müxtəlif hissələrdən ibarətdir. Romanın bütün hissələrini Qoç Səməndər obrazı birləşdirir desək, səhv etmərik. "Haramı" romanında Birinci Qarabağ müharibəsindən sonra baş verən hadisələr təsvir edilmişdir. Təsadüfi deyildir ki, hadisələr gözdən, könüldən uzaq bir yerdə-Haramı düzündə, səhrasında baş verir. İstedadlı tənqidçi N.Məmmədovun qənaətinə görə "Şərifin romanında "Haramı" təkcə buranın ab-havasının portreti kimi diqqəti cəlb etmir, həm də Haramı düzünün-Qarabağın florası və faunası haqqında uğurlu təsvirləri ilə yaddaşda özünə məskən salır. Bu ərazilərin təbii landşaftı, yerli koloriti gözümüz qarşısında əksər xüsusiyyətlər ilə dayanır. Bütün bunlar, bir tərəfdən, oxucu diqqətini daha çox məşğul etməyə hesablanıbsa, digər tərəfdən, onun məqsədi belə maraqlı fonda müxtəlif tarixi dövrlərdə baş vermiş tarixi hadisə və olayların canlı şəkildə yaradılmasına tuşlanmışdır" [3, s.5].

Qədim zamanlarda, sonrakı illərdə Sovet hökumətinin qanunlarının hər yerə işlədiyi bu dövrdə Haramı düzündə qanun-qaydalara bir o qədər də əməl olunmurdu. Ucu-bucağı görünməyən Haramı səhrasında "vəhşi qanunlar" işləyirdi. 90-cı illərin əvvəllərində Azərbaycandakı yiyəsizlik, hərc-mərclik, hakimiyyətsizlik dövründə qanunlara əməl edən insanlar çətin ki, tapılardı. Onlar üçün geniş meydan açılmışdı. Çoxları onsuz da əvvəllər də qanunlara ciddi şəkildə əməl etmirdilər. Özlərinin yaratdıqları, işlətdikləri, tətbiq etdikləri qanunlarla işləyir, yaşayırdılar. Bu qəbildən olan qanunların işləməsi, tətbiqi hakimiyyət orqanlarına, xüsusilə də polisə, məhkəməyə sərf edirdi. XIX əsrdə yaşayıb-yaratmış Qasım bəy Zakirin sözləri ilə desək, murovlar, yəni hakimiyyət nümayəndələri oğrularla ortaq olmuşdular. Deyəsən, aradan təxminən yüz ildən artıq bir müddət, vaxt keçməsinə baxmayaraq, oğruların və doğruların qarşılıqlı münasibətlərində heç nə dəyişməmişdi. Tarix yenidən təkrarlanırdı... Həm də pis, ən mənfi formalarda zühur edirdi. XIX əsrdə Zakirin təsvir etdiyi Azərbaycan insanı xarici müdaxilə olmadan bir-birilərini məhv edirdilər, haqq-hesab çəkirdilər, "müstəqil şəkildə".

Şərif Ağayarın "Haramı" romanında təsvir olunan Azərbaycan vətəndaşı daha fərqli, çətin şəraitdə fəaliyyət göstərirdi. İnsanlar həm daxili, həm də xarici düşmənlərlə mübarizə aparmaq məcburiyyətində qalmışdılar. İrəliyə getmək mümkün deyildi, hər an təhlükə ilə qarşılaşa bilərdilər. Mənfur erməni faşistləri Haramı düzünün yarısını işğal etmiş, azərbaycanlıları əsrlərlə

DOI:10.30546/gdu.2023.278-285

yaşadıqları doğma torpaqlarından qovmuşdular. Ona görə də Haramıda artıq əvvəlki qayda-qanunlarla yaşamaq mümkün deyildi. Haramıda yaşamaq üçün sözün həqiqi mənasında igidlik, cəsarət, dözümlülük tələb olunurdu. Hakimiyyət nümayəndələri ilə də "iş birliyi" də öz yerində. Yazıçı Şərif Ağayar ilk növbədə Haramı sözünün mənşəyinə aydınlıq gətirir. "Haramı tarixən oğruların-həramilərin məskəni olub. Eşitdiyimə görə Haramı sözü də burdan yaranıb. Ancaq bəzi mütəxəssislər Haramı sözünü bu yerlərin əl dəyməyən, insan yaşamayan xam torpaqlar olması ilə əlaqələndirirlər. Bəziləri isə, iddia edir ki, ərəb istilası zamanı bu ərazidə yurd salan qoşun-ləşkəri həramilər, onların məskənini isə Hərami adlandırıblar. Haramı yolları istər sərkərdələr, istərsə də el-elat tayfaları üçün qorxulu idi. Bu sahibsiz dərə-təpələrdə, yolunu azmış insanlara rast gəlmək adi hal idi. Deyilənə görə Teymur kimi cahangir Haramının yastı-yapalaq təpələrini xeyli gözdən keçirəndən sonra soruşub: "Bu yerin adı nədir?" Kimsə təzim edərək cavab verib: "Haramı, hökmdarım!" Fateh gözlərini qıyaraq, qamçısını çox uzaqlarda görünən bir kəndə tərəf uzadıb: "Bəs o kəndin adı nədir?" Başqa bir əyan yaltaqlanaraq, fəxrlə buyurub: "Yağıbənd". Teymur bir az düşünəndən sonra deyib: "Bir yerin ki, adı Hərami, kəndinin adı Yağıbənd ola, burdan xeyir gəlməz! Atlanın,gedirik".[1, s.42] Əlbəttə, Haramı düzü haqqında müxtəlif fikirlər, şayiələr mövcuddur. Haramı haqqında müsbət fikirlərə rast gəlmək müşgül məsələydi. Ancaq indi Haramı Azərbaycanın müxtəlif rayonlarından didərgin düşmüş qaçqınlara, köçkünlərə qucaq açmışdı... Bir vaxtlar çoxlarının bəyənmədiyi, yanından laqeydliklə ötüb keçilən Haramı düzü... "Şah olsan da dilənçiliyə işin düşəcək" məsəli nahaqdan deyilməyibdir. Əsərdə baş verən hadisələr Laçın rayonundan qaçqın düşmüş Rüstəmin ailəsinin ətrafında cərəyan edir. Əslində Şərif Ağayarın "Haramı" romanında Rüstəmin ailəsinin timsalında sayı milyona çatan qaçqınlar ordusunun yaşadıqları ömür, faciəvi taleləri təsvir olunmuşdur. Romanın əvvəlində Qoç Səməndərin öldürülməsi təsvir olunmuşdur. "Səməndərin çardağı tərəfdə güllə açıldı. Silah səsinə öyrəncəli idik: mən də, qağam İdris də, arvadım Sərəngül də... Amma bu dəfə güllə mənə dəydi elə bil, bütün vücudum titrədi, belimin ortasından qızmış şiş soxdular. Tumançaq bayıra çıxar-çıxmaz Səməndərin nərəsini eşitdim: "Ehey, namərd!!!" Da-da-da-da!!!-çardağa od yağırdı. Əlim incəmin üstündə bir yanımı çəkə-çəkə içəri qayıtdım.Şalvarımı alıb qışqırdım: "Bəxşeyşgil Səməndəri öldürdülər!!!" [1, s. 36] Cavab gözləmədən bayıra atdım özümü, arxadan qağamın titrəyən səsi gəldi: "Yaxınlaşma, səni də vurallar." Böyük qardaşının xəbərdarlığına baxmadan irəli atıldı. Axı,söhbət ona dar gündə həya durmuş, insanlıqdan xəbəri olmayan borc sahiblərindən qurtarmış Səməndərdən gedirdi... "Çardağa doğru irəlilədikcə səslər kəsildi. Bir qaraltının asta-asta aşağı endiyini gördüm. Titrək qadın səsi eşidildi: "Rüstəm, sənsən?-Xalidə idi, silahı mənə tərəf tutub, titrəyirdi. Ayağa qalxdım. Xalidə-Səməndəri öldürdüm, Rüstəm!-titrəyə-titrəyə yerə çökdü, başını əllərinin arasına aldı"... İtlər çardağın ətrafında həyəcanla zingildəyirdi. Gözüm qaranlığa alışınca Səməndəri çardaqdan bir az aralıda uzanan gördüm, ona tərəf qaçdım, ömrümdə ilk dəfə cəsarət edib, mökhəm səslə onu çağırdım: "Səməndər!" Tərpənmirdi.. Yaxınlaşmaq istədim, itlər imkan vermədi.Çardağa tərəf getdim, yastıqdan sovrulan tüklər hələ də havada uçuşur, nəfəs aldıqca ağzıma-burnuma dolurdu. Fatma qorxusundan yorğan-döşəyin arxasında gizlənmək istəmiş, güllələr mitili cırıqlayıb onun qarnına dolmuş, yazıq qız elə yastıq qucağında ölmüşdü". [1,s.40] Sonralar Rüstəm Qoç Səməndərin kim tərəfindən öldürüldüyünü öyrənməyə çalışmışdı. Xalidə, Bəxşeyş və digər düşmənlər tərəfindən.... Qoç Səməndərlə Rüstəm həyatın ən çətin anlarında, yaşamaq, dolanmaq üçün çıxış yolunun olmadığı bir məqamda tanış olmuşdular. Həm də borc sahiblərinin qapının ağzını kəsdikləri bir zamanda. Həmin dövrdə Azərbaycanda başlı başını saxlasın zəmanəsiydi. Qaçqınlıq, köçkünlük problemi, qayğıları da bir tərəfdən....

Rüstəm Səməndərlə "yağmurlu payız səhərlərinin birində çadır düşərgəsindəki toyuq hininə oxşayan balaca qamış daxmasının qarşısında, boz rəngli, üstü bataqlı köhnə nolonbir saxladı, içindən sürücü ilə bahəm, ortaboylu, nəhəng vücudlu bədheybət bir adam düşdü. Çirkli ayaqları,

DOI:10.30546/gdu.2023.278-285

kərpic kimi dördkünc əlləri aslan pəncəsi kimi qalın idi. Kök bədəni əynindəki pencəyə güclə sığışırdı. Pencəyin qoltuqları partlamış, dirsəkləri sökülmüşdü. Adam yeridikcə bütün vücudundakı, hətta kürəyindəki qalın ət tərpənir, baldır-bud əzələlərinin yuxarı dartıldığı paltarın üstündən aydın görünürdü. Qamış daxmamızın balaca, tozlu pəncərəsindən mənimlə birgə qonağa tamaşa edən arvadım Sərəngül udqunub, sual dolu nəzərlərini üzümə dikdi. Bədənimdə xəfif əsməcə dolaşdı, içim pırıldadı." [1, s. 56].

"Təzəcə evlənmişdim, di gəl kasıbçılıqdan həyatın dadını çıxara bilmirdim. Sərəngül uzaq qohumumdu. Onlar da varlı sayılmazdılar, ancaq biz lap kasıb idik. Üstəlik iki min dollara qədər borcumuz varıydı..." Həmin iki minin qəribə tarixçəsi vardı. Qaçqınlıq həyatı əvvəllər görünməyən, qaranlıqda, yerin altında gizlənən, fürsət tapıb üzə çıxmağa çalışan bəlaları, xəstəlikləri üzə çıxarıb, göstərmişdi. Gözlənilmədən gələn bəlalar təkcə Laçın rayonunun qaçqınlarına aid deyildi. Bütün rayonlardan qaçqın düşənlər eyni bəlalarla qarşılaşırdılar. Yuxarıda göstərilən bəlalar, problemlər əslən Laçın rayonundan olan Rüstəmin ailəsindən də yan keçməmişdi. Laçının diş göynədən bulaqlarına, sərin yaylaqlarına öyrəşmiş ana qaçqın düşərgəsindəki şəraitə uyğunlaşa bilməmiş, xəstələnib yorğan-döşəyə düşmüş, üç-dörd aydan sonra vəfat etmişdi. "Qağa" deyə, müraciət edilən böyük qardaş da xəstələnmişdi. Rüstəm ailənin maddi vəziyyətini düzəltmək üçün qazanc dalınca Moskvaya getmişdi. Az bir müddətdə əli yaxşı gətirmişdi. Varlanmış, çoxlu pul toplamışdı. Ancaq necə deyərlər, "sən saydığını say, gör, fələk nə sayır." Dərd gələndə batmanla gəlir, çıxanda isə misqalnan çıxır, atalar məsəli də nahaqdan deyilməyibdir. Moskvada Rüstəmin işlədiyi mağazanı malları ilə birlikdə yandırdılar. Rüstəm varını-yoxunu satdı, xeyli borca düşməli oldu. Birtəhər canını qurtarıb, vətənə qayıtdı. Ancaq Moskvadakı "xeyirxah" insanlara üç min borcu qalmışdı. Rüstəmgil inəkləri, qoyunları, xalçaları Beyləqan bazaranında dəyər-dəyməzinə satsalar da, borcu tam şəkildə ödəyə bilmədilər. Rüstəm üçün həyatın sirli, qaranlıq məqamları üzərindəki pərdələr yavaş-yavaş götürülürdü. Rüstəmin Moskvada borclu olduğu və əslən Azərbaycandan olan insanlar necə də "operativ və cəld" işləmişdilər. Qaçqınlıq dövründə, rabitənin, nəqliyyatın sıfır səviyyəsində olduğu bir vaxtda, ucsuz-bucaqsız Haramı düzündə Rüstəmi necə tapmışdılar, bax bu maraqlı məsələ idi. Hətta bir neçə dəfə Rüstəmi hədələmişdilər də. Borcunu verməyəcəyi təqdirdə onu Rusiyaya aparıb, Sibirdə qul kimi işlədəcəkləri barədə xəbərdar etmiş, qorxutmuşdular.. Üçüncü dəfə xahiş-minnətdən, yalvarışlardan sonra "yazıqları gəlmiş", rəhmdil qərar qəbul etmiş, son dəfə xəbərdar etmişdilər... Sonralar Qoş Səməndərin gizlicə, açıq əməliyyatlarında iştirak edəndən, müxtəlif ən yüksək hakimiyyət nümayəndələri ilə söhbətlərinin, danışıqlarının "sövdələşmələrinin" şahidi olan Rüstəmə çox gizli mətləblər aydın olmuşdu. Rüstəm əmin olmuşdu ki, Moskvadakı mağaza onu Haramıda axtarıb tapan adamlar tərəfindən yandırılmışdı.... Fikrimizcə, Rüstəmin düşdüyü vəziyyət 90-cı illərdəki minlərlə qaçqının acınacaqlı taleyini əks etdirir. Yuxarıda göstərdiyimiz kimi borc dalınca gələn adamlara üç min qaytara bildilər... "Vəziyyətimizə baxıb, mənə bir il möhlət verdilər. Cavan adamsan, işlə düzəlt! Doğru sözdür, doğru olmağına.… Amma harda işləyə bilərdim ki?! Heyvan yox təsərrüfatla məşğul olum, torpaq yox əkin-biçin edim, diplom da ki, olmasa yaxşıdı. Ali savadlı, aqronom idim, amma harada işləyəcəkdim.." [1, s.59] Ona görə də boş vaxtını, gününü qəsəbədə, yəni çadır düşərgəsində kitabxanada kitab oxumaqla keçirirdi. Yəqin ki, kitab oxuyanların yarışını keçirsəydilər, birinci yerə çıxardı. Rüstəmin ümidinin hər tərəfdən üzüldüyü bir vaxtda Qoç Səməndər onların evinə gəldi. Borclular da öz yerində. Demək olar ki, hər gün gəlirdilər... Nə qədər qəribə olsa da, qəsəbənin icra nümayəndəsi Səməndəri xüsusi hörmətlə, böyük ehtiramla qarşıladı. Dəfələrlə öz evinə dincəlməyə, çay içməyə dəvət etdi. Ancaq Səməndər dəvəti qəribə laqeydliklə qarşıladı. Salamını da dilucu aldı. Onunla balaca uşaqla danışan kimi danışırdı. Sonralar Səməndərin icra nümayəndəsini saymamasını, adam hesab etməməsinin səbəbləri məlum oldu... Çünki Səməndər heç kəsi nahaqdan incitməzdi. Bir vaxtlar Səməndərin əlaltıları indiki icra nümayəndəsini oğurladığı qoyunlarla birlikdə Səməndərin

DOI:10.30546/gdu.2023.278-285

hüzuruna gətirmişdilər. Səməndər də ona toxunmamış, sağ-salamat evlərinə göndərmişdi. İndi “icra nümayəndəsi” deyəndə Səməndəri gülmək tuturdu.... Beləliklə, Rüstəm qağası və həyat yoldaşı Sərəngüllə birlikdə Haramı düzünə köçəsi oldu. Ailə Səməndərə çobanlıq etməli oldu. Əlbəttə, müəyyən haqq, pul müqabilində... Rüstəmi və onun ailə üzvlərini fermada Səməndərin sürücüsü Eyvaz qarşıladı. Sonra onlar Səməndərin anası Qərənfil xala ilə tanış oldular. “Qaçqın olduğumuzu biləndə, Qərənfil xala bir köynək də yaxınlaşdı bizə: “Oy! Oy! Sizin də ocağınız viranə qalıb” - əlini dizinə çırpdı.” [1, s. 62] Və beləliklə, Rüstəm sevmədiyi, ağlının ucundan belə keçirmədiyi bir peşənin-çobanlığın sirrini öyrənməyə başladı. Çobanlıq çətin peşəydi. Amma deyəsən, romantikası da varmış. Çətinliyi də öz yerində. Kənddə yaşamasına baxmayaraq, çobanlığın nə olduğunu bilməzmiş. İndi ehtiyac ucbatından razılaşmışdı. Kənddə olanda günün nə vaxt çıxdığını, batdığını bilməzdi, fərqinə varmazdı. Göy üzü nə qədər cazibəli, maraqlı imiş. Ucsuz-bucaqsız səma ənginliklərə qədər gedib çıxırdı, uzanırdı. Qəribədir ki, Göy üzü Kirs dağının ətəklərinə, Şuşaya, Laçına qədər uzanıb gedirdi, orada qurtarırdı. “Ancaq axşam düşən kimi yerlə göy birləşir sanki, sərhədlər itir. İnsan gün ərzindəhansı ovqatda olur olsun, qürub vaxtı kədərlənir. Bəlkə də, ömründən bir günün getməyinə, bəlkə də, günəşin batmağına... Bilmirəm. Qürubu seyr eləmək hüznlüdür. İllah da bir olan yataqdan. Günəş Şuşanın üstündəki Kirs dağına elə ehtiyatla qonur ki... Elə bil, bu dəqiqə dağın maili yerindən aşağı yuvarlanacaq.” [1, s. 71] Vaxt keçdikcə Rüstəm çobanlıq sənətinin sirlərinə bələd olmağa başlayır, hətta sevir də... Çobanlığın dünyada ən vacib peşələrdən birinin olduğuna özünü inandırmağa çalışır və inandırır da.... Rüstəmin dilsiz-ağızsız qoyunlar haqqında da fikirləri dəyişir. “Dünyada bütün heyvanların yırtıcılardan müdafiə imkanı var: at qaçır, təpik atır, inəyin, camışın iri və güclü buynuzları var, keçi qayalara dırmanır, fəqət qoyun əlacsızdır. Qoyun sürüsü öz əlacsızlığı ilə bilmədiyi oyunlara düşən millətləri, xalqları xatırladır. Allah peyğəmbərləri çoban etməklə işarə verir, bəlkə də... Çoban sürü üçün nədirsə, peyğəmbər qövm üçün odur. Mən Quranı oxumuşam. İbrahimi oda atan, Musaya, Məhəmmədə olmazın zillətini çəkdirən qövmün aqibəti çobansız sürününkü kimi olub.. Çobanlıqda bir sirr, bir hikmət var təbii ki Nizamidən tutmuş Səməd Vurğuna, Məmməd Araza qədər bütün şairlər çobanları seviblər, onların şəninə gözəl sözlər deyiblər. Təkcə ona görə ki, çobanlar mərd olur, çörəkli olur? Əsla, yox! Çoban ruhən təmizdir, saf qəlblidir, əsas məsələ budur, məncə.” [1. s.59]. Rüstəmi öz peşəsi haqqında olan düşüncələrdən Səməndərin sürücüsü və köməkçisi işləyən Eyvazın səsi ayırdı.Deyəsən, hər ikisini Səməndər çağırırdı. Rüstəm gəldiyi gündən Səməndər haqqında çox eşitmişdi, ancaq onunla söhbət etməmiş, danışmamışdı. Bəlkə də Səməndər istəməməmişdi, vaxt gözləyirdi, sınaqdan keçirirdi. Amma yolda Eyvazın “sənin kiməsə borcun yoxdur ki?” sözləri Rüstəmi diksindirdi. Deməli, əvvəlki borclular yenə qapının ağzını kəsdirmişlər, bura qədər gəliblər. Yəqin ki, Səməndər Rüstəmi Eyvazla birlikdə ona görə çağırır. Rüstəm fermaya gələndə qəribə mənzərə ilə rastlaşdı. Səməndər nədənsə görünmürdü. Yəqin ki, iş dalınca getmişdi. Borc sahibləri yenidən gəlmişdilər. Onların hamısı “Cip” markalı maşından düşdülər. Həyətdə arvad-uşağın olmasına qətiyyən fikir vermədilər. Maşından düşən kimi Rüstəmi hədələməyəbaşladılar. Danışıqlarına da fikir vermədilər. “Ə, oğraş, əlimizdən qaçıb, tülkü dəməyinə girmisən?- Sifətimə bir möhkəm yumruq vurdu, az qala yıxılacaqdım, Eyvaz qolumdan tutdu. Nə olub, ay kişi, bir dəqiqə dayan, dayan bir...-Kəs səsini avara-çapıq Eyvaza çəmkirdi. Lotu zadsan ə, adam gizdiyirsən. Tanıyırsan, məni? Tanıyırsan?! Sən öl torpağını torbaynan daşıtdıraram. Sonra mənə çevrildi: “Arvadını girov aparacam, biqeyrət! Get dədəni bazarda sat, pulumu gətir ver.” Əlacsız qaldım. Allahdan başqa köməyim yox idi. Tərs kimi Səməndər də gözə dəymirdi” [1. s.66].

Borc sahibləri müqavimətə rast gəlmədiklərinə görə sözdən işə keçdilər. Rüstəmi maşına tərəf sürüməyə başladılar. Fermanı səs-küy bürüdü. Sərəngül, Səməndərin anası qışqırmağa başladı. Elə bil ki, Səməndəri Allah yetirdi. Əlindəki ağacla onları budamağa başladı. Səməndərin həyat yoldaşı Xalidə dəəlində tüfəng hazır dayanmışdı. Gələnlər paylarını yaxşı aldılar. Çapığın

DOI:10.30546/gdu.2023.278-285

sinəsi al qana boyanmışdı, başı dağılmışdı, Bir saat bundan əvvəl özlərini şir, pələng kimi aparanlar bir anın içərisində qorxaq tülküyə dönmüşdülər. Güclə qaçıb, canlarını qurtardılar. Səməndər isə heç nə olmayıbmış kimi sakitcə evə keçib əyləşdi, nəfəsini dərdi. Görünür, Laçında Səməndərin əvvəlki həyatında bu qəbildən olan hadisələr çox olmuşdu. Ona görə Səməndər qətiyyən təəccüblənmirdi. Baş verən hadisə iki eyni taleyi, yəni qaçqınlıq həyatını yaşayan iki ailəni bir-birinə daha da yaxınlaşdrdı, arada mehribanlıq yaratdı. Axşam Səməndərin anası Qərənfil xala Rüstəmgilə qonaq gəldi. Dolanışıqları ilə maraqlandı. Üzünü Sərəngülə tutdu; “Bir şey lazım olsa, utanma denən. Birisigün bazardı, Beyləqana gedəcəklər, nə lazımdısa, tapşırım alıb gətirsinlər”. Qərənfil xala dünən baş verən hadisələrin Səməndər üçün kiçik məsələ olduğunu vurğuladı. Səməndərin başına o qədər oyun gəlib ki.... Səməndər Laçında böyümüşdü. Uşaq yaşlarından atadan yetim qalmışdı. Həyatın hər üzünü görmüşdü. Qərənfil xala maraqlı əhvalatlar danışırdı. Hamısının da şahidi olmuşdu. “Mənə İmam Hüseyin müsibəti verif Səməndər.Atası öləndə 2-3 yaşı vardı. Atası da qoçaq adam idi, yazıq vaxtsız getdi. Ocaqlar başından uzaq... Kış-kış-kış... Qulağının sırğalığını çəkib, əlinin üstü  ilə yeri üç-dörd dəfə döyəclədi-On doqquz yaşımdan dul qaldım bir birçəyimi qara hörüb, Səməndəri böyütdüm.” [1, s. 68] Səməndər atasını tez itirdiyindən onun  tərbiyəsi, təhsili ilə ciddi maraqlanan olmur. Elə uşaqlıqdan ərköyün olan, heç kimə-doğma anasına belə qulaq asmayan Səməndər tezliklə məktəbdən qaçıb, kənddəki oğru-quldur  qohumlarına qoşulur. Və daha çox atasının yaxın qohumu Gülağa ilə hərlənirlər. Səməndər anasından artıq Gülağanı eşidir, oğurluq dünyasının  bütün sirlərini ondan öyrənir. Gülağa isə yeniyetmə Səməndəri  ən riskli işlərə, ən ağır əməliyyatlara göndərir. Tutularsa, “səhv eləyən” azyaşlı uşağa arxa durmaq onu düşdüyü zibildən qurtarmaq Gülağa üçün su içimi kimi asan idi. Çünki Gülağa özü də qüdrətli adam idi! O, dağıtdığı arxacların, apardığı heyvanların sirri açılmazdı, heç vaxt. Xülasə, aslan balasını ova öyrədən kimi, Gülağa da Səməndəri yetişdirir, ona silahla davranmağı, insanları ya gücünün, ya zəhminin hesabına təsir altına salmağı öyrədir. Səməndərin 15 yaşı tamam olmamış, Gülağa qarşısında, böyüklərdən daha güclü, daha qıvraq, onlardan daha cəsarətli, onlardan daha yenilməz bir igid görür. “Qərənfil xala neçə dəfə Gülağanın qabağını kəsib,yalvarır ki, arada Allahını gör, bir tək oğlumu pis yollara salma, oğru-quldur kimi böyüməsin. Gülağa hər dəfə Qərənfil xalaya söz verir, əmin edir, ancaq sözünün üstündə durmur. Səməndər isə yaylaqda gələn tərəkəmələrdən at, qoyun, inək oğurladıqca həvəslənir. Əlbəttə, Səməndər Gülağa və Qarakeş obasında oğurluqla sənət kimi məşğul olan digər insanlar üçün qiymətli ərməğanı idi. Ondan hamı istifadə etməyə çalşır, qorxmazlığından, igidliyindən pul-para qazanırdılar. Quşa qanad, qatıra dırnaq saldıram Laçın dağlarında Səməndərə gözün üstə qaşın var deyəcək Allah bəndəsi yox idi. Onu istər ata, istər sə ana tərəfindən olan qohumları ovucları içində saxlayır, arxasında dağ kimi dayanırdılar. Bu da Səməndəri ipə-sapa yatmayan,h eç kimlə hesablaşmayan təhlükəli bir varlığa çevirirdi. Bu yolun sonu təbii ki, türmə olacaqdı.” [1. s.78].

Səməndəri əsgər də aparmamışdılar. Həmin vaxt sovetin dövrü idi. Komissiyada hərbi komissar Səməndəri diqqətlə nəzərdən keçirmiş, boy-buxunundan, enli qamətindən vəcdə gəlmiş, güləşlə məşğul olmağı məsləhət görmüşdü. O zaman Səməndərin 110 kilo çəkisi vardı. Ancaq anası Qərənfil xala ağıllı tərpənmişdi, hərəkət etmişdi. Bilirdi ki, Səməndər rusun qayda-qanunlarına tabe olmayacaqdır. Kimləri isə vurub, şikəst  edəcək, ya da öldürəcəkdir. Ona görə də qohumlarla, qonum-qonşularla məsləhətləşəndən, götür-qoy edəndən sonra pul verib, Səməndəri əsgərlikdən saxlatdırmışdılar... Səməndərin Laçında çoxlu qəribəlikləri olmuşdu. Səməndərin əmisi yeganə qardaşı oğlunu tərbiyə etməyə, oğurluğa getməkdən çəkindirməyə çalışırdı, səy göstərirdi. Ona görə də qardaşı oğlunu yanında saxlayırdı, təsir göstərməyə çalışırdı. Gecə əmisini yuxuya verəndən sonra Səməndər ayılır və oğurluğa gedir. Kəlbəcərlilərin Mıxtökən yaylağından beş cöngə aparıb Qəhrəmanbəy təpəsindəki dostuna verib, geri qayıdır. Səhər açılanda Kəlbəcərlilər bütün obaları alt-üst edirlər. Səməndərdən də şübhələnirlər. Əmisi Müqəddəs

DOI:10.30546/gdu.2023.278-285

Qurana and içir ki, gecə Səməndər heç bir yana getməmişdir. Heyvan sahibləri Qurana and içməyə inanır və kor-peşman geri qayıdırlar. Səməndərin əmisi and içib qayıdanda həyacandan titrəyirmiş. Səməndər isə danışdırıb ələ salırmış əmisini. Uşaqlardan kimsə "Əmini niyə incidirsən, yazıqdı, səndən ötrü əldən-ayaqdan gedir, söyləyincə Səməndər gülür: "Bekara adamdı! Camaatın balasından, əmisindən silah-sursat , qızıl-gümüş qalıb oğul-uşağına, bunlardan da bizə töhmət qalıb. Qohum olmasa, qayaların birindən itələyib, salardım qeyrətsizi...."[1, s. 79].

And içdikdən sonra mal sahibləri əl çəkirlər Səməndərin yaxasından. İki gün keçməmiş Səməndər məzə üçün əhvalatı olduğu kimi açıb əmisinə danışır ,kişinin ürəyi gedir... Səməndərin mərdliyinə görə hamı ona güzəştə gedirdi... Səməndərgilin döyüb yola saldıqları insanlar polisə şikayət etmişdilər. Polis kapitanı Eyvazla, Rüstəmlə nəzakətlə, doğma qardaş kimi danışdı. Məsələni hərtərəfli "öyrəndi, araşdırdı". Eyvazın "Səməndər dedi ki, bazar günü saat bir tamamda iki min dolları Ədalət müəllimə-yəni polis rəisinə göndərəcək" sözlərindən sonra polis kapitanı gülə-gülə onlarla vidalaşdı. Hətta Əjdahaya-Səməndərə xüsusi salam göndərməyi də unutmadı... Rüstəm Səməndəri getdikcə daha dərindən və hərtərəfli tanımağa başlayırdı. Yuxarıda göstərdiyimiz kimi "Haramı" romanı bir-biri ilə qırılmaz vəhdətdə olan ayrı-ayrı hissələrdən ibarətdir. "Həyatimizə bədheybət bir adam gəlir", "Köçürük", "Haramı ilə tanış oluram", "Vurun köpəyoğlunu", "Qərənfil xala qonağımızdır", "Birinci əhvalat", "Siz də dolanasız gərək", "Ağa səni and verirəm,cəddinə", "İkinci əhvalat", "Uçan ulduza arzumu demişəm", "Xəyalat", "Üçüncü əhvalat", "Qaçaqlar,qoçaqlar,quldurlar", "Tanımadığım bığlı bir adam". Şərif Ağayarın "Haramı" romanında cəmiyyətin bütün təbəqələrindən nümunələr gətirilmişdir. 90-cı illərin əvvəllərində cəmiyyətdə uzun müddətdir ki, yığılıb qalmış mənfiliklər, nöqsanlar üzə çıxmışdı. Sovet hökümətinin sərt qadağaları aradan qalxmışdı. İnsanlar azadlığı layiqincə qiymətləndirməyi bacarmırdılar, bəzən də istəmirdilər. Xüsusilə də hakimiyyət nümayəndələri yaranmış vəziyyətdən sui-istifadə edirdilər. Yazılan qanunlara qətiyyən əməl olunmurdu. Qoç Səməndər sanki hakimiyyət nümayəndələrinin də vəzifələrini yerinə yetirirdi. Səməndərin çoxları tərəfindən qəbul edilməyən hərəkətlərinə haqq qazandırmaq fikrində deyilik. Amma Səməndəri ittiham etmək də düzgün hesab edilə bilməz. Ona görə də Şərif Ağayar Səməndərin uşaqlıq, gənclik illərinə qısaca da olsa ekskurs etmişdir. Əslində Səməndərin qəribəliklərini uşaqlıq illərində axtarmaq lazımdır. Qoç Səməndər qaçqın düşəndən sonra bildiyimiz kimi Haramı düzündə məskən salmışdı. Sanki burada xeyirlə şər kəllə-kəlləyə, qarşı-qarşıya gəlmişdi. Haramı sözü romanda müxtəlif cəhətlərdən izah olunur. Ancaq əsrlərdən bəri Haramı insanların yaddaşında qaçaqların, quldurların məskəni kimi qalmışdı. Qəribədir ki, Haramı düzü adındakı haramlıq mənasına qətiyyən xilaf çıxmamışdı, xüsusi sədaqətlilik nümayiş etdirmişdi. İndi Haramı düzü Qoç Səməndərlə üz-üzə gəlmişdi. Qoç Səməndər də əzilənlərdən, əyilənlərdən deyildi. Ancaq Haramı düzü çox hökmdarların, cahangirlərin dizini yerə qoymuşdu. Teymur kimi dünyaya hökmranlıq edən, məğlub olmayan sərkərdə Haramı düzündə qərar tuta bilməmişdi. Qoşunları ilə birlikdə tələm-tələsik Haramı düzünə tərk etmişdi. Düzgün də qərar qəbul etmişdi. Əlbəttə, Qoç Səməndər Şərif Ağayarın sevdiyi, müsbət, ideal qəhrəman səviyyəsinə yüksəldiyi sərvətdir. Ancaq Teymura aman verməyən Haramı düzünün Səməndərə güzəştə gedəcəyi inandırıcı deyildir. Fikrimizcə, Səməndərin sonu faciə ilə qurtarmalıydı və qurtardı da... Bir az da Azərbaycan ədəbiyyatı tarixinə nəzər salmaq kifayətdir. Əbdürrəhim bəy Haqverdiyevin "Şeyx Şaban" hekayəsinin qəhrəmanı Şaban sonda cəmiyyət tərəfindən məhv edilmədimi? Axı, Şaban düz yola qayıtmışdı, oğurluqdan, quldurluqdan tamamiləəl çəkmişdi, uzaqlaşmışdı. Cəmiyyət ona rəhm etdimi? Qətiyyən yox!

İsmayıl Şıxlının "Dəli Kür" romanının qəhrəmanı Cahandar ağa oğru, quldur deyildi. Böyük bir kəndin bəyi idi. Ancaq cəmiyyət, hakimiyyət onu da həzm edə bilmədi. Cahandar ağanı məğlub, Molla Sadıqı qalib etdi. Cahandar ağa Kürün çarpışan mirvari dalğaları arasında can verdi. Oğlu Şamxal tərəfindən dəfn olundu. Səməndəri isə tamam başqa tale, aqibət

DOI:10.30546/gdu.2023.278-285

gözləyirdi. Əlbəttə, yuxarıda göstərdiyimiz kimi Şərif Ağayar "Haramı" romanında Səməndəri hər vasitə ilə ideallaşdırmağa çalışır və buna müəyyən mənada nail olur. Səməndər Haramı düzündə məkanın adına layiq hərəkət edən çoxsaylı sakinlərdən, qaçqınlardan, köçkünlərdən kəskin şəkildə fərqlənirdi. Arxadan zərbə vurmağı bacarmırdı. Təsadüfi deyildir ki, hakimiyyət nümayəndələri, xüsusilə də "qanun keşikçiləri, müdafiəçiləri" hesab edilən polislər arasında böyük hörmət qazanmışdı. Polislər bilirdilər ki, Səməndər verdiyi sözə əməl edəndir. Saat doqquz deyibsə, hökmən polis idarəsində olacaqdır. Digər tərəfdən polis rəisinə söz verdiyi  iki min dolları da vaxtında çatdıracaqdır. Həm də Səməndər hədsiz dərəcədə ağıllıdır, təcrübəlidir, "güllənin haradan atıldığını dəqiq bilir". Səməndər qorxu nə olduğunu bilmirdi, ölümün gözünün içinə dik baxa bilirdi. Ancaq heç vaxt ehtiyatını əldən vermirdi. Qohumlarına, yaxınlarına həmişə ehtiyatlı hərəkət etməyi tövsiyə edirdi. Hər hansı bir məsələnin, problemin sonuna, vacehinə çatmamış yoxlamamış, öyrənməmiş qəti qərar qəbul etməzdi. Səməndər bunu qorxaqlıqdan, acizlikdən etmirdi. Uzun illərin sərt, mürəkkəb, keşməkeşli həyatı Səməndəri ehtiyatlı olmağa vadar etmişdi. Nə qədər qəribə səslənsə də Səməndər həqiqət, düzlük, vicdan mücəssəməsidir. Ancaq həmin dövrdə cəmiyyətdə, hakimiyyət dairələrində qanunların  işləmədiyi bir zamanda bu mümkün deyildi ."Haramı"  romanından belə bir nəticə hasil olur ki, Şərif Ağayar Səməndər kimi bir  igidin sonda məhv olmasına, faciəvi şəkildə məhv olmasına ürəkdən acıyır. Səməndər oxusaydı, savad alsaydı, yəqin ki, böyük alim, cəmiyyət üçün faydalı, gərəkli adam ola bilərdi. Onsuz da qəddar, qarışıqlıq, heç kimin bir-birinim kağızını oxumadığı illərdə Səməndər insanlığını, mənliyini itirməmişdi. Səməndərdə baş verən hadisələrə düzgün qiymət bacarığı vardı. Çəkinmirdi, sözü birbaşa üzə deyirdi. Yaltaqlığı, ikiüzlülüyü də yaxın buraxmırdı. Laçınlı məhşur seyid oğru Bəxşeyşin tapşırğı, xahişilə Səməndərin yanına xahişə  gəlmişdi. Səməndər seyidi böyük hörmətlə, təntənə ilə qarşılamışdı. Sövq-təbii hiss edirdi ki, Seyidi Bəxşeyş göndərmişdir. Səməndər seyidi  həqiqəti  söyləməyə məcbur etmişdi. Seyidin nəfəsindən qorxan anası Qərənfil xala isə az qalırdı saçını yolsun. Səməndərin çoxlu düşməni olmasının əsas səbəbi məhz çəkinmədən həqiqəti deməsində, söyləməsində və müdafiə etməsindəndir. Səməndər həqiqəti biləndən sonra Bəxşeyşin yatağına hücum etmiş, heç kimdən çəkinmədən Bəxşeyşi törətdiyi cinayəti etiraf etdirmiş və xüsusda sənədi də imzalatdırmışdı. Polis idarəsindəki çəkişmədə, sorğu-sualda Səməndər məhz tədbirli olması sayəsində qələbə qazanmışdı. Polis rəisinəəvvəlcədən verilən rüşvət də öz yerində... Milyarder Feyzulla adından da göründüyü kimi Haramı düzünün şəriksiz sahibiydi. Qohumları və özü heç kimi  saymırdılar. Feyzulla qonşu rayonun polis rəisinə külli miqdarda rüşvət vermişdi ki, Səməndəri tutdursun. Səməndər burada da təmkinli, ehtiyatlı hərəkət edərək məğlub olmamış, Feyzulla kimi milyarderi susdura bilmişdi. Səməndər Haramı düzündə ədalət, düzlük mücəssəməsi rolunda çıxış edə bilirdi. Baxmayaraq ki ,cəmiyyətdə vəhşi, cəngəllik qanunları hökm sürürdü. Digər tərəfdən şərif Ağayar "Haramı" əsərində 90-2000-ci illərdə yaşanan faciələri həqiqətləri həqiqi yazıçı qələmi ilə göstərə bilmişdir.

***Ədəbiyyat***


1.Ağayarov Ş. Haramı. Bakı: "Qanun", 2011, 304 s.

2.Alışanlı Ş. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı, Sabah, 2010, 360 s.

3.Məmmədov N. Şərif Ağayarın Haramı əsərində eskizler. Ədəbiyyat qəzeti 2017. 18 mart 8 s, 5

4.Müasir Azərbaycan ədəbiyyatı. X cilddə, Bakı: BDU nəşriyyatı, 2007, 564 s.

5.Müstəqillik dövründə Azərbaycan ədəbiyyatı. II cild. II cild, Bakı, "Elm və təhsil", 2016 , 796 s.

6.Qaliboğlu E. Qarabağ mövzusu bədii ədəbiyyatda. Xalq Cəbhəsi, 5 noyabr 2019, 14 s.

DOI:10.30546/gdu.2023.278-285

**РОМАН ШАРИФА АГАЯРА «ХАРАМИ» И 90-е ГОДЫ АЗЕРБАЙДЖАНСКАЯ ПРАВДА**

*Исламова Жале Эльман*

***Резюме***

Шариф Агаяр пришел в литературу в 90-е годы. Он автор ряда интересных рассказов. Однако важное место в творчестве Шарифа Агаяра занимает роман «Харами». События в романе «Харами» происходят в начале 90-х годов. Известно, что 90-е годы являются одним из самых сложных периодов в истории Азербайджана. Азербайджан стонал в тисках экономических и политических трудностей. С одной стороны, армянская оккупация… Шарифу Агаяру удалось показать проблемы азербайджанского общества 90-х годов в романе «Харами». Роман «Харами» имеет интересную систему образов. Но целые события и образы связаны у Гоха Саламандры. В произведении самым суровым образом описана судьба и жизнь саламандры.

**SHARIF AGHAYARS NOVEL “HARAMI” AND THE 90 S AZERBAIYAN FRUTHS**

*İslamova Jale Elman*

***Summary***

Sharif Aghayar came to literature in the 90s. He is the author of a number of interesting stories. However, the novel "Haramy" occupies an important place in Sharif Aghayar's work. The events in the novel "Haramy" take place in the early 90s. It is known that the 90s are one of the most difficult periods in the history of Azerbaijan. Azerbaijan was groaning in the grip of economic and political difficulties. On the one hand, the Armenian occupation... Sharif Aghayar managed to show the problems of the Azerbaijani society in the 90s in his novel "Harami". The novel "Harami" has an interesting system of images. But whole events and images are connected by Goch Salamander. The fate and life of the salamander is described in the most severe way in the work.

***Rəyçi dos. Fərrux Məmməd oğlu Məmmədov***

***Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının 12 iyun 2023-cü il tarixli iclasın 13 saylı protokolu***

***Daxil olduğu tarix 16 iyun 2023-cü il***